# Vətən sevgisi ilə ucalan qəhrəman



Vüqar Xudaverdi oğlu Əmrullayev Vətənə, xalqa, el-obaya təmənnasız xidməti ilə Astara rayonda yaxşı hörmət və nüfuz sahibidir. O, Vətən müharibəsində qazanılan şanlı zəfərimizə də göstərdiyi qəhrəmanlıqla adını yaza bildi. İndi bizimlə bir cərgədə olan qazinin mərdliyi, sadə təbiəti, el-obasına bağlılığı, insanlığa sevgisi çoxlarına nümunədir. Vüqar ömrünün 32-ci ilini yaşayır. Onun yaşadığı bu həyat əməllərinə görə çox mənalı və dəyərlidir.

Doğma Azərbaycana gərəkli bir həyat yaşayan, köksündə əsl qəhrəman ürəyi döyünən Vüqar həqiqi hərbi xidmətini Naxçıvanda Xüsusi Təyinatlı Qoşunda keçirir. Hərbi hissədə Vətəninə, torpağına halal sevgisi nümunə götürülür, mərdliyi, saflığı ona böyük hörmət qazandırır. Bütün təlimlərdə iştirak etməklə əla döyüşçü keyfiyyətləri göstərir. Vətən naminə odun-alovun içinə gedib qalib olmağı özünə əsas amal seçir. Əsgərlikdən sonra doğulub boya-başa çatdığı yurd yerində, əhatə olunduğu cəmiyyətdə xeyirxahlığı, qayğısı çoxunun əlindən tutur. Məhəbbət soraqlı, sədaqət ünvanlı günlərin eşqi ilə qurub-yaratsa da, erməni dığaların Azərbaycanın müqəddəs parçası sayılan Qarabağa ədalətsiz təcavüzü Vüqarın çiyinlərində ağır bir dağ olur. Hər an yağı düşməni bu iyrənc hərəkətlərinə görə didib-parçalamağa məqam gözləyir.

Ermənistan işğalçı hərbi birləşmələrin ötən il sentyabrın 27-də cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərini və yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmasına cavab olaraq Ordumuz Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücuma keçir. Qarabağın azadlığı uğrunda Vətən müharibəsi başlanır. Vüqar könüllü dığalardan 30 ilinin qisasını almağa yollanır. Xüsusi Təyinatlı Qoşunun tərkibində tank əleyhinə qumbaraatan vəzifəsini icra edir. Vətən qeyrətli, el namuslu igidin döyüş yolu Füzuli, Xocavənd, Şuşadan keçir. Şüarı da " Torpağı oğul qorumasa, bəs kim qoruyar" olur. Ölüm-dirim savaşlarda düşmənə sarsıdıcı zərbələr vurmaqla onlara çoxlu itki verir.

Ən qaynar nöqtələrdə bacarıqlı, səriştəli hərbiçi kimi döyüşür, dığalar onun qarşısında tab gətirməyib biabırçı məğlubiyyətə düçar olurlar.

Füzulidə " 40 metr " deyilən yerdə Vüqarın dəstəsi 5 gün mühasirədə qalır. Vətənin yolunda canından keçməyə hazır olan igid döyüşçülər ölümdən zərrə qədərdə qorxmurlar. Oktyabrın 6-da yaralı halda onu hospitala gətirirlər. Həkimlər ağır kəllə-beyin travması aldığına görə Vüqara döyüşə girməyə icazə vermirlər. Vüqar isə heç kəsi dinləmir, ağrılarını unudub yenidən döyüşə atılır. Bu dəfə Xocavənd Şuşa istiqamətində döyüşməyə başlayır. Qırmızı bazar deyilən yerdə düşmənin minomyot atəşləri nəticəsində yenidən yaralanır. Ağır kəllə-beyin travması və sağ tərəfindən çoxlu qəlpə yaraları alıb. İgid əsgər deyir ki, dığalardan arzuladığım qisası ala bildim. Amma tam döyüşə bilmədim. İkinci dəfə xəstəxanada ayılan vaxtı artıq döyüşün başa çatmasını, Ordumuzun Zəfər xəbərini eşitdim. Sevincdən göz yaşlarımı saxlaya bilmədim. Qəhrəman bir xalqın oğlu olmaqla fəxr etdim...

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***